**Yeganə Xanoğlan qızı Məmmədova,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası
və metodikası kafedrasının müəllimi,

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN ƏSAS PERSPEKTİVLƏRİ

**Егана Ханоглан кызы Мамедова,**
преподаватель кафедры Педагогика и методики
дошкольного образования АДПУ

# ОСНОВНЫЕ ПЕРСПЕКТИВЫ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ

**Egana Khanoglan Mamedova,**
lecturer of the department of pedagogy and methodology
preschool education ADPU

# THE MAIN PROSPECTS FOR PRE-SCHOOL EDUCATION

**Xülasə :** Məqalədə müasir dövrdə məktəbəqədər yaşlı uşaqlarının tərbiyəsinin təkmilləşdirilməsinin ən əhəmiyyətli məsələlərdən biri olduğundan söhbət gedir. Bu mənada məktəbəqədər dövr gələcək şəxsiyyətin çox qiymətli keyfiyyətlərinin tərbiyə olunmasında lazımlı və çox əhəmiyyətli mərhələdir. Məktəbəqədər təhsil vahid təhsil sistemində ilk addımdır və məktəbə uşaqların, onların şəxsiyyətinin tərbiyəsində, intellektual, fiziki və psixoloji inkişafında xüsusi qiymətə malikdir.

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaq, məktəbəqədər təhsil, tərbiyə işinin təşkili, müasir təhsil modeli, əsas perspektivlər;*

**Резюме:**В статье речь идет об основных перспективах дошкольного образования. Отмечается, что сегодня овершенствование воспитания детей дошкольного возраста одна из важнейших задач. В этом смысле дошкольный период становится необходимым и очень важным этапом для продвижения многих ценных качеств будущей личности. Дошкольное образование является первым шагом в единой системе образования и имеет особое значение для интеллектуального, физического и психологического развития детей, их личности и подготовки к школе.

***Ключевые слова:*** *ребенок дошкольного возраста, дошкольное образование, организация воспитательной работы, современная модель образования, ключевые перспективы;*

**Summary:** The article deals with the main prospects of pre-school education. It is noted that improving the upbringing of the garden of children is one of the most important tasks today. In this sense, the preschool period becomes a necessary and very important stage for the promotion of many valuable qualities of the future personality. Preschool education is the first step in a unified education system and is of particular importance for the intellectual, physical and psychological development of children, their personality and preparation for school.

***Key words:*** *preschool education, organization of educational work, key prospects.*



Müstəqillik yolunda inamla addımlayan ölkəmizdə böyüməkdə olan nəslin tərbiyəsi daim diqqət mərkəzində saxlanır. Nəzərə almaq lazımdır ki, bu gün məktəbəqədər tərbiyə müəssisələrindəki uşaqlar gələcəkdə ölkənin dövlət quruculuğunda, idarə olunmasında, ideya-siyasi bazasının möhkəmləndirilməsində yaxından iştirak edəcəklər.

Müasir təhsil modelində məktəbəqədər təhsilə ümumi təhsilin birinci pilləsi, uşaqların məktəb təliminə müvəffəqiyyətlə hazırlığı üçün bərabər imkanların təminatının əsası kimi baxılır.Təhsilin modernləşdirilməsində məqsəd həmin sistemin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğundan qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün bir sıra məsələlərlə yanaşı, məktəbəqədər təhsilin də müasir tələblərə cavab verən səviyyəyə çatdırılması vacibdir.

Bağçayaşlı uşaqların tərbiyəsinin təkmilləşdirilməsi bu gün xüsusi aktuallıq kəsb edən vəzifələrdən biridir. Bu mənada, məktəbəqədər dövr gələcək şəxsiyyətə bir çox qiymətli keyfiyyətlərin aşılanmasında mühüm mərhələyə çevrilir. Ona görə də məktəbəqədər müəssisələr, ilk növbədə, bu mərhələnin imkanlarından səmərəli istifadə etməklə uşaqların qayğısına qalmalı, müxtəlif vasitələrlə, rəngarəng və maraqlı tədbirlərin köməyi ilə tərbiyə prosesini həyata keçirməlidir.

Məktəbəqədər təhsil, ümumtəhsil sisteminin ilk pilləsi olmaqla, uşaqların intellektual, fiziki və psixoloji inkişafında, şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmalarında xüsusi əhəmiyyətə malikdir. Gənc nəslin, o cümlədən, məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd, hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata, mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq, cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirməkdir. Onun üçün də məktəbəqədər müəssisələrdə uşaqların tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir.

Məktəbəqədər təhsil sisteminin inkişafı Azərbaycan Respublikasının təhsil sahəsində həyata keçirdiyi dövlət siyasətinin strateji istiqamətlərindən biridir. Məktəbəqədər təhsilin problemlərinə dövlət səviyyəsində, əhəmiyyətli dərəcədə diqqət yetirilir.

2007-ci il, aprel ayının 12-də "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı"nın (2007–2010) təsdiqi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2089 nömrəli Sərəncamı imzalamışdır. Həmin sərəncamda məktəbəqədər təhsilin bütün sahələrinin inkişafı üzrə istiqamətlər göstərilmişdir. Sənəddə məktəbəqədər təhsilin yeniləşdirilməsi kurikulumunun hazırlanmasının vacibliyi qeyd olunur: "... Bu istiqamətlərdən biri də məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsi məqsədilə, məktəbə hazırlıq baxımından uaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji inkişafı, dərketmə və nitq qabiliyyətlərinin yüksəldilməsi üzrə əsas tələbləri özündə ehtiva edən, həmçinin pedaqoji prosesin humanistləşdirilməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə milli kurikulumun hazırlanması və müvafiq qaydada təsdiq olunmasıdır" [1,səh.6]. Bu baxımdan məktəbəqədər təhsil standartlarının hazırlanması zərurəti yarandı və artıq respublikamızda bu istiqamətdə işlər aparılır. Məktəbəqədər təhsil standartlarının yaradılması uşaqların ilkin, hərtərəfli inkişafı üçün zəruridir, sonrakı inkişafı üçün başlanğıc rolunu oynayır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2010-cu il, iyul ayının 16-da "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"nın təsdiq olunması haqqında 137 nömrəli qərar qəbul edildi. Həmin sənəddə məktəbəqədər təhsil istiqamətində ümumi təlim nəticələri 5 sahə üzrə müəyyənləşdirilir:

- fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik;
- sosial-emosional inkişaf;
- nitq, savad təlimi və ünsiyyət;
- mədəni-estetik və yaradıcı inkişaf;
- qavrama və ümumi biliklər [3,səh.4].

Sənəddə məktəbəqədər təhsilin sonu üçün nəzərdə tutulan ümumi təlim nəticələri həmin sahələrə əsasən müəyyənləşdirilmişdir ki, bu da gələcəkdə müvafiq işlərin aparılması üçün məktəbəqədər təhsil işçilərinə istiqamət verir.

2012-ci ildə, "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Proqramı (kurikulumu)" hazırlanarkən inteqrativlik əsas prinsip kimi götürülmüşdür. "Sənəddə məktəbəqədər inkişaf sahələri arasında əlaqənin, ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin yaş qruplarına uyğun inkişaf etdirilməsi mühüm pedaqoji tələb kimi qarşıya qoyulmuş, inteqrasiya yaş pillələri, inkişaf sahələri arasında qarşılıqlı əlaqə və asılılığın əsasına gətirilmişdir" [1,səh.19]. Nəzərə alınmışdır ki, uşaqlar inteqrativ bacarıqlara yiyələnməklə öyrəndikləri materiallar arasında qarşılıqlı əlaqəni başa düşəcək, şəxsi və ictimai problemlərin həllində onlardan istifadə edəcəklər.

Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər məşğələləri, əsasən, "Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramına (kurikuluma) (3-6 yaş)" əsaslanan inteqrativlik prinsipinə

uyğun təşkil etməlidirlər. İnteqrativlik uşaqlar üçün bütün inkişaf sahələrində öyrənmə mühiti yaradır. Müasir məşğələlər birtipli struktura malik deyil. Buna görə də hər bir tərbiyəçi özü üçün məşğələnin konseptual əsasına uyğun daha əlverişli iş və təlim forması seçir. Tədqiqatlar göstərir ki, inteqrativlik məktəbəqədər yaşlı uşaqların inkişafında ən yaxşı və səmərəli yanaşmadır. Məşğələlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsi imkanını yaradır. Bu isə təlim yükünün, məşğələlərin sayının azaldılmasına gətirib çıxarır.

Məktəbəqədər təhsil kurikulumunun tələbi budur ki, uşaq cəmiyyətdə, ətrafında gedən proseslərə reaksiya verə bilsin. Əvvəllər təhsil biliyə yönəldilmişdirsə, indi biliklərlə yanaşı, həyati bacarıqlar da əsas götürülür. Müasir tələblərə görə, uşaq müstəqil həyatda ona aid nə varsa, hamısına yiyələnməyi bacarmalıdır. Ümumiyyətlə, məktəbəqədər təhsil proqramı uşaqların şəxsiyyət kimi formalaşmalarına yönəldilib, onlarda müstəqilliyin, qabiliyyət və bacarıqların yaranmasını təmin edəcəkdir.

Məktəbəqədər təhsilin kurikulumu və onun bir komponenti olan *standartlar* şəxsiyyətyönümlülük, nəticəyönümlülük səviyyələri ilə dəyərləndirilir. Kurikulumların əsas məqsədi yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın bütün sahələrində istifadə etməyi bacaran, milli, ümumbəşəri, mənəvi keyfiyyətlərə yiyələnmiş, fəal, şüurlu, məsuliyyətli və konstruktiv şəxsiyyətin yetişdirilməsindən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr, 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda respublikada keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim, təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik yeni sistemin yaradılması üçün beş strateji istiqamətdə geniş miqyaslı tədbirlər nəzərdə tutulur.

***Birinci strateji istiqamət*** səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılmasıdır və təhsilin məktəbəqədər, ümumi, peşə–ixtisas olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

***İkinci strateji istiqamət*** təhsil sistemində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun mənimsənilməsinin səmərəliliyinə nail olan səriştəli təhsilverənin formalaşdırılmasına xidmət göstərir, özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkarlanması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını özündə ehtiva edir.

***Üçüncü strateji istiqamət*** təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini, təhsil müəssisələrində nəticəyönümlü, şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı, idarə olunması üzrə yeni məlumat, hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

***Dördüncü strateji istiqamət*** müasir tələblərə uyğun olan və ömür boyu təhsili təmin edən infrastrukturun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya–kommunikasiya texnologiyaları, əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf, yaşlıların təhsili, peşə-ixtisas məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin, komplekslərinin qurulması kimi tədbirləri nəzərdə tutur.

***Beşinci strateji istiqamət*** respublikada iqtisadi cəhətdən dayanıqlı, dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, müxtəlif mənbələrdən istifadə olunmaqla, təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödə-

nişli xidmətlərin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur. Burada strateji məqsəd ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan sistem yaratmaqdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı ilə bağlı Dövlət Strategiyası"nın əsas məsələlərindən biri də beynəlxalq təcrübədən istifadə etməklə, *bu prosesə müasir informasiya texnologiyalarının sürətli tətbiqi*dir.

Tərbiyəçi təlim prosesində yeni texnologiyaların ən münasibini seçməlidir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq təlimin subyektləri kimi çıxış edir. Münasibətlər "subyekt-subyekt" münasibətlərinə uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürlərinin, düşüncələrinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olurlar. Onlar qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil zehni fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarış aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq olunurlar.

Biz pedaqoqlar və tərbiyəçilər inamla deyə bilərik ki, gələcəyimiz əsl insanın necə formalaşmasından, bütövlükdə uşaqların şüuruna hansı fikir və ideyaları yükləməyimizdən asılıdır.

**Məqalənin elmi yeniliyi**. Məqalədə məktəbəqədər təhsilin əsas perspektivlərinin əhatə olunduğu bütün dövlət sənədləri təhlil olunur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan bütün strateji istiqaməklər təhlil olunur.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədə qeyd olunur ki, tərbiyəçi təlim prosesində yeni texnologiyaların ən münasibini seçməli, münasibətlər "subyekt-subyekt" prinsipinə uyğun qurulmalıdır.

**Ədəbiyyat**

1. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı". Bakı şəhəri, 12 aprel, 2007-ci il.
2. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı. (kurikulumu) (3-6 yaş)". Bakı, 2013.
3. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". Bakı, 16 iyul, 2010.
4. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət Strategiyası". Bakı şəhəri, 24 oktyabr, 2013-cü il.
5. "Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası". UNİCEF–2017

**Rəyçi: prof. Y.Ş.Kərimov**
**E-mail: yeganememmedova.doc@gmail.com**
**Redaksiyaya daxil olub: 05.05.2019.**